# Nizami rayonunun sosial-iqtisadi inkişafı: real vəziyyət və perspektivlər



**Qış gələndə özüylə Bakı sakinləri üçün müəyyən problemlər də gətirir. Bəzən su boruları donur, partlayır və nəticədə su binaların zirzəmilərinə dolur. Bəzi yerlərdə isə məhəllədaxili asfalt örtükləri zədələnir, insanların gediş-gəlişi çətinləşir. Nizami rayonunun sakinləri də belə problemlərdən xali deyil.**

Bu rayondan Milli Məclisə deputat seçilən Sədaqət Vəliyevaya sosial-məişət xarakterli bu tip müraciətlər çox olur. Statistikaya görə, ötən il xanım deputata 111 nəfər seçicinin müraciəti daxil olub. Bu müraciətlərdən 106-sı sosial, 5-i isə digər problemlərə aid olub. İşsizliklə bağlı müraciət edən 18 seçicidən 9 nəfəri işlə təmin edilib.

### DEPUTATA ƏSASƏN SOSİAL MƏSƏLƏLƏRLƏ BAĞLI ŞİKAYƏT EDİRLƏR

S.Vəliyeva belə məsələlərin Bakı sakinləri üçün xarakterik olduğunu hesab edir: "Fərqli müraciətlər olur. İşlə əlaqədar, həm də binanın problemləri ilə bağlı şikayət edənlər olur. Başqa sosial problemlərlə də yanıma gəlirlər. Biz hər bir halda müraciət edən seçiciləri dinləyirik, lazım olduqda, əlaqədar adamlarla, qurumların nümayəndələri ilə danışıb onların problemlərini həll edirik".

Milli Məclis üzvü deyir ki, ötən il ərzində B.Nuriyev, Çobanzadə, Naxçıvanski, E.Süleymanov, Babək, İ.Məmmədov, Rüstəmov küçələrində yaşayan insanların müraciətlərinin müsbət həllinə yardımçı olub. Belə ki, sakinlər zirzəmiyə yığılmış suyun çəkilməsi, kanalizasiya sisteminin, içməli su xətlərinin, liftlərin, mənzillərin dam örtüyünün təmiri ilə bağlı müraciətlər ediblər. O cümlədən, blok qapılarının dəyişdirilməsi, oturacaqların quraşdırılması, hündür ağacların budanması, qırılmış uşaq yelləncəklərinin bərpası və rənglənməsi, yeni ağacların əkilməsi, məişət və tikinti tullantılarının məhəllələrdən təmizlənməsi ilə əlaqəli xahişlər olub. Hətta küçə itlərinin təhlükəli hücumlarının qarşısının alınması ilə bağlı da deputata müraciət daxil olub.

Ümumiyyətlə, millət vəkili tərəfindən 2014-cü ildə Nizami rayonu üzrə abadlıq işlərinin aparılması, istilik probleminin aradan qaldırılması və digər məsələlərlə bağlı fərdi və ya kollektiv şəkildə edilmiş 13 müraciət aidiyyatı orqanlara yönləndirilib.

Aidiyyatlı orqanlar dedikdə, deputat əsasən Nizami rayon İcra Hakimiyyətini nəzərdə tutur. Məsələn, rayonda istilik sistemi ilə təchiz olunmayan yaşayış binaları, kanalizasiya və su təchizatı ilə bağlı məsələlərdə icra orqanlarının köməyi olmadan keçinmək mümkün deyil. Rayon İH də bu məsələlərdə konkret işlər görməkdədir. İH-nin saytında yer alan məlumata görə, son 9 ayda rayon Sukanal Departamenti tərəfindən ayrı-ayrı ünvanlarda müxtəlif diametrli 2018 p/m su borusu, 23 ədəd siyirtmə, 196 ədəd nasos, 68 ədəd elektrik mühərriki dəyişdirilib, 446 p/m kanalizasiya borusu təmir olunub, 60 ədəd lyuk asfalt səviyyəsinə qaldırılıb.

### İCRA HAKİMİYYƏTİNƏ MÜXTƏLİF MƏZMUNLU MÜRACİƏTLƏR GƏLİR

Nizami rayon sakinləri eyni tipli problemlərlə əlaqədar daha çox İcra Hakimiyyətinə müraciət edirlər. 2015-ci ilin 9 ayında RİH-nə vətəndaşlardan 1024, o cümlədən Azərbaycan Respublikası Prezidenti Administrasiyasından 309, digər rəhbər və mərkəzi orqanlardan 292 müraciət daxil olub. Onlardan 24,8% mənzil məsələləri, 33,2% tikinti məsələləri, 8,6% torpaq məsələləri, 8,5% məişət problemləri və maddi yardım , 24,9% isə digər məsələlər təşkil edib.

Binaların istiliklə təchizatı, həyətlərin abadlaşdırılması, yolların asfaltlanması və maddi yardım göstərilməsinə görə, vətəndaşlardan 20 minnətdarlıq məktubu daxil olub.

Nizami rayonunun bəzi sakinləri təmirsiz yollardan gileylənirlər. Bu məsələ də yerli İcra Hakimiyyəti tərəfindən həll olunur. Belə ki, bu ilin noyabrından etibarən təmirinə başlanmış Mikayıl Əliyev küçəsinin Mehdi Abbasov küçəsi ilə Babək prospekti arasında yerləşən yolun bir hissəsinin təmiri yekunlaşıb. Bu yolun hərəkət hissəsinin uzunluğu 1375 metr, eni isə 26,5 metrdir. Küçənin 36500 kvadrat metr sahəsinə 2 qat olmaqla yeni asfalt-beton örtüyünün döşənməsi işləri aparılıb, küçə boyu müasir işıqlandırma sistemi quraşdırılıb.



Təxminən 1 ay öncə isə Bəkir Çobanzadə küçəsinin Mehdi Abbasov ve Rüstəm Rüstəmov küçələri arasındakı 1 km-ə yaxın hissəsində təmir-tikinti işlərinə başlanılıb. Artıq Bəkir Çobanzadə küçəsinin bir hissəsi təmir edilərək sürücülərin ixtiyarına verilib. Təmir-tikinti işləri küçənin Mehdi Abbasov və Rüstəm Rüstəmov küçələri arasında yerləşən hissəsinin 600 metrlik ərazisində aparılıb. Ümumilikdə təmir işlərinin aparıldığı ərazinin uzunluğu 924 metr, küçənin ortalama eni isə 15 metrdir.

Təmir-tikinti işləri zamanı küçədə səth sularının normal kənarlaşdırılması üçün nəzərdə tutulmuş mövcud yağış-kanalizasiya sistemi yenilənib, zəruri olan yerlərdə yeni yağış barmaqlıqları qoyulub, kommunikasiya xətlərinin dəmir-beton plitələri qaldırılaraq, baxış qapaqları yenilənib, yeraltı kommunikasiya xətləri (qaz, su, istilik, elektrik, rabitə) yolun hərəkət hissəsindən kənara köçürülüb. Ərazinin 2 qat olmaqla 14 min kvadrat metr sahəsinə yeni asfalt-beton örtüyü döşənib. Piyadaların da rahatlığı nəzərə alınaraq təmir işləri çərçivəsində yol boyu hər iki istiqamət üzrə 1,5 metr enində yeni piyada səkiləri yaradılıb. Səkilərin kənarlarına 1 200 paqonmetrə yaxın yeni səki daşları düzülüb.

Təmir işlərinin aparıldığı ərazidə avtobuslar üçün 2 ədəd xüsusi "cib"li dayanacaqlar yaradılıb. Avtobus "cib"lərinin uzunluğu 15 metr, eni isə 3 metrdir. Eləcə də yol boyu işıqlandırma sistemi işlək vəziyyətə gətirilib, nəqliyyat vasitələrinin hərəkətinin tənzimlənməsi məqsədi ilə zəruri olan yerlərdə yol nişanları quraşdırılıb, yol cizgi və yol göstərici xətlərinin çəkilişi işləri aparılıb.

Yaxın aylarda isə Babək prospektində yeraltı keçidlərin tikintisinin başa çatdırılması nəzərdə tutulub.

### 28 MİNDƏN ÇOX İŞ YERİ AÇILIB

Ümumiyyətlə, demək olar ki, bu rayonda sosial-iqtisadi islahatlar sadəcə kağız üzərində deyil, reallıqda da görünür. Nizami rayon İcra Hakimiyyəti başçısının müavini Gülnaz İsrafilovanın sözlərinə görə, 2015-ci ilin ilk 9 ayı üçün statistikaya baxanda, ilin hədər getmədiyini demək olar. Bunun üçün rəqəmlərə nəzər yetirmək kifayətdir.

Cari ilin doqquz ayında rayonda fəaliyyət göstərən müəssisələr tərəfindən 346,9 milyon manatlıq məhsul istehsal edilib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 5,1 faiz çoxdur. Müəssisələrə gəlincə, 200 minə yaxın əhalisi olan rayonda 12 iri sənaye müəssisəsi, 22 səhiyyə obyekti, 1 özəl ali məktəb və 2 kollec, 60-a yaxın ictimai-iaşə müəssisəsi, 8 kompleks idman qurğusu və 6 stadion yerləşir. İri istehsalla məşğul olan qurumlar sırasında Bakı Neft Emalı Zavodu, Elektron Hesablama Maşınları zavodu, Peyk zavodu, "Bakı Şərab-1" ASC və digərlərini sadalamaq olar.

İndi hər kəsi narahat edən məşğulluq problemi də bu rayonda diqqət mərkəzindədir. Hesabatlara görə, cari ilin doqquz ayında rayonda 1847 yeni iş yeri açılıb. Bütövlükdə 2003-cü ildən bu günə kimi Nizami rayonunda 28 mindən çox daimi iş yeri açılıb. Təbii, bu məsələyə rayon ərazisində çoxsaylı istehsal müəssisələrinin yerləşməsi də təsir göstərib.



### BƏLƏDİYYƏ HƏR GÜN AHIL İNSANLARA PULSUZ YEMƏK PAYLAYIR

Nizami rayonu həm də güclü bələdiyyəsi ilə tanınır. Məhəllədaxili yolların düzəldilməsi, qapıların dəyişdirilməsi ilə yanaşı, bələdiyyənin ən vacib işlərindən biri yaşlılara kömək edilməsidir. Belə ki, "Neftçilər" metro stansiyasının yaxınlığında "xeyir-şər evi" deyilən balaca bir məkan var. Yaşayış binaları ilə əhatəli bu məkanda artıq 5 ildir ki, ahıl insanlara pulsuz yemək paylanılır. Hər gün təxminən 90-a yaxın yaşlı insan burada nahar edir. Evdən çıxa bilməyən bəzi ahıllar isə evinə yemək aparılır.

İH tərəfindən isə bu il Ramazan bayramı münasibətilə rayonda 5 müxtəlif ünvanlarda yerləşən mədəni-kütləvi tədbirlər evində iftar süfrələri açılıb. Ümumilikdə 2 mindən yuxarı imkansız şəhid, əlil, müharibə veteranları, azteminatlı və məcburi köçkün ailələrinə, tənha və kimsəsiz qocalara yemək paylanılıb. 630 nəfərə bayram sovqatı verilib. Həmçinin Qurban bayramı münasibətilə də bayram tədbirləri təşkil edilib, 5400 nəfərə bayram payları paylanılıb.

### BİR QƏDƏR TARİXƏ NƏZƏR SALSAQ...

Nizami rayonunun maraqlı tarixi var. Onu digərlərindən fərqləndirən əsas məqamlardan biri odur ki, bu rayonun əsası ümumilli lider Heydər Əliyevin şəxsi təşəbbüsü ilə qoyulub. Nizami - Bakının gənc rayonlarından biridir. Belə ki, rayon 1980-ci ilin noyabrında indiki Xətai və Nərimanov rayonları ərazisindən ayrılmaqla yaradılıb. Hazırda bu rayon Nərimanov, Sabunçu, Suraxanı və Xətai rayonlarının inzibati əraziləri ilə əhatə olunur. Bakının qədim yaşayış məntəqələrindən sayılan Keşlə qəsəbəsi rayonun inzibati ərazi bölgüsünə daxildir.

Lakin rayondakı mövcud durum onu göstərir ki, illərin sayı əsas deyil, əsas qazanılan təcrübə və görülən işlərdir. İşlər isə ortadadır. Nəzərə almaq lazımdır ki, yuxarıda qeyd olunanlar Nizami rayonunda həyata keçirilən işlərin cüzi bir hissəsidir.

### YENİ İLDƏ GÖZLƏNİLƏN YENİLİKLƏR

Planlara gəlincə, artıq gələn il üçün görüləcək işlərin ilkin siyahısı bəllidir. Bura 114 yaşayış binasında istilik xətlərinin, ayrı-ayrı ünvanlarda kanalizasiya xətlərinin dəyişdirilməsi, 2 yeni yarımstansiyanın tikilməsi daxildir. Eləcə də 2016-cı ildə "Təbriz" kinoteatrının qarşısındakı park təmir olunacaq, Q.Qarayev prospekti yenidən qurulacaq, bir sıra küçə və yollar yenidən düzəldiləcək. 6 yaşayış binasında 12 ədəd liftin yenisi ilə əvəz edilməsi, 6 çoxmənzilli yaşayış binasının şifer və 86-sının ruberoid dam örtüyünün əsaslı təmiri də nəzərdə tutulub.

2016-cı ildə həm də rayon ərazisindəki təhsil, səhiyyə, mədəniyyət və idman obyektlərində təmir işlərinin aparılması planlaşdırılır. İl ərzində 6 orta məktəbin, 1 kollecin, 1 peşə liseyinin, 2 uşaq bağçasının, 2 səhiyyə müəssisəsinin, 1 məktəbdənkənar tərbiyə müəssisəsinin əsaslı təmir edilməsi, 2 orta məktəbin hər birində 640 şagird yerlik əlavə korpusların, 2 orta məktəbdə ümumilikdə 26 əlavə sinif otağının, 2 orta məktəbdə isə yeni idman zalının, o cümlədən 2 yeni özəl bağçanın tikilməsi nəzərdə tutulub.

Bütün bunlarla yanaşı, elektrik enerjisi, qaz, istilik və içməli su təchizatının daha da yaxşılaşdırılması, yol təsərrüfatı və rabitə xidmətləri ilə bağlı xeyli işlər həyata keçiriləcək. Əminik ki, bu tədbirlər planının reallaşması ilə, qədəm qoyduğumuz 2016-cı ildə Nizami rayonu bütün istiqamətlərdə inkişafını davam etdirəcək, gözəlləşəcək, müasirləşəcək, əhalinin isə sosial-iqtisadi durumu daha da yaxşılaşacaq.

**Məğrur Əliyev**

**QEYD: Nizami rayon İcra Hakimiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir.**